# Dövlətin gənclər siyasəti yeni mərhələdə

**Gənclik dövlətin gələcəyidir. Bugünkü yeniyetmə sabah tanınmış mütəxəssis, peşə sahibi, milli mənəvi dəyərlərin daşıyıcısı və gələcək nəslə ötürücüsüdür. Azərbaycan dövləti gənc nəslin inkişafına xüsusi qayğı göstərir. Prezident İlham Əliyev bu barədə deyib: "Gənclər siyasətinə gəldikdə ... olduqca mükəmməl qanunvericilik bazası mövcuddur. Gənclər siyasəti ilə bağlı qanun var. Azərbaycanda gənclərlə bağlı iki Dövlət Proqramı qəbul edilib və uğurla həyata keçirilib". Yeni nəslin ölkənin həyatında fəal və səmərəli iştirakı üçün təhsilin həyati əhəmiyyəti vardır. Bu baxımdan Azərbaycanda mənzərə ürəkaçandır. Belə ki, gənclərimizin təhsilə cəlb edilmələri sayəsində savadlılıq, demək olar ki, yüz faiz təşkil edir.**

Dövlət siyasətinin bəhrəsi olan Gənclər Fondu yeni nəslin özünü ifadəsində və cəmiyyətə təqdimdə xüsusi rol oynayır. Belə ki, onlar mədəniyyət, təhsil, sosial sahələrə və həm də siyasi islahatlara dair layihələr işləyirlər. Göründüyü kimi, gənclərin öz istedad və bacarığını üzə çıxarmağa ölkəmizin həyatında, inkişafında rol oynamağa Fond lazımi stimul verə bilir. Təhsil, elm, bilik cəmiyyətin inkişafında aparıcı amildir. Elmin və biliyin bünövrəsi isə təhsildən başlayır. Ölkənin siyasi xətlərində təhsil prioritetdir. Dövlət başçısı təhsilin önəmi haqda bəhs edərkən vurğulayıb:"Təhsil də hökumətimiz üçün əsas prioritetlərdən biridir . Çünki biz tamamilə əminik ki, yalnız təhsilli, müxtəlif sahələrdə biliklərə malik insanlar həm ölkənin, həm özlərinin inkişafına kömək edə bilərlər. Əgər dünyada inkişaf etmiş ölkələrin keçdiyi yola və əldə etdiyi nailiyyətlərə nəzər yetirsək, görərik ki, uğurlu inkişafın əsas vasitələri enerji sərvətləri, mineral ehtiyatlar, neft və qaz yox, məhz təhsil, elm və texnoloji yeniliklərdir. Yalnız təhsil, bilik və texnologiya bütün bəşəriyyətin aparıcı qüvvəsidir. Bütövlükdə bəşəriyyət innovasiyalardan, müasir texnologiyalardan faydalanır. Buna görə də təhsil Azərbaycanda prioritetdir".

Əgər biz yürüdülən siyasətin mahiyyətinə baxsaq görərik ki, cəmiyyətin inkişafı üçün "kapital-insan- inkişaf" xətti reallıqdır. Yəni neftdən gələn kapitalın insan kapitalına çevrilməsi Azərbaycanda davamlı inkişafa güclü stimul verib. "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində minlərlə gənc xarici ölkələrin nüfuzlu ali məktəblərində təhsil alırlar. Son 10 ildə xaricdə təhsil alanların sayı təqribən 3 dəfə artmışdır. Elm və təhsil müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsinə, elmimizin dünya elminə inteqrasiyasına, bu sahələrdə işləyənlərin sosial müdafiəsinə xüsusi diqqət göstərilir.

2008-ci il yanvar ayının 31-də dövlət başçısının imzaladığı "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin Avropa ali təhsil məkanına inteqrasiyası ilə bağlı bəzi tədbirlər haqqında" sərəncam bu istiqamətdə mühüm əhəmiyyətə malikdir. Həmin ilin iyun ayının 10-da ölkə rəhbəri tərəfindən təsdiq edilmiş "2008-2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı" İKT-nin təhsil sistemində geniş tətbiqinə və innovativ mühitin yaradılmasına səbəb olmuşdur. 2009-cu ildə Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondunun yaradılması dövlətin bu sahəyə davamlı diqqətinin və inkişafına maddi dəstəyinin daha bir təzahürüdür.

2009-cu ildə "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun qəbul edilməsi təhsil siyasətinin istiqamət və mahiyyətini müəyyənləşdirdi, təhsil sistemimizin dünya və Avropa təhsil sisteminə səmərəli inteqrasiyasına hüquqi şərait yaratdı. Ölkə başçısının 2011-ci il iyulun 11-də imzaladığı "2011- 2012-ci illərdə Azərbaycan təhsilinin inkişafı üzrə Milli Strategiya"nın hazırlanması haqqında" sərəncamı informasiya cəmiyyətinin və elmə, biliyə əsaslanan iqtisadiyyatın yaradılmasını ön plana çəkir. Bu istiqamətdəki siyasətin əsasında neft kapitalının insan kapitalına çevrilməsi dayanır. Bu prosesdə isə gənclərin yetişdirilməsi və yerləşdirilməsi prioritetdir. Təsadüfi deyil ki, 2007-ci il "Gənclər ili" elan edilmişdi. 2011-ci ildə dövlət rəhbərinin sərəncamıyla təsdiqlənmiş "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə Dövlət Proqramı" gənclərin həm təhsil, həm işlə təmin, həm də sosial problemlərinin həllində xüsusi rol oynayır.

Dövlətin siyasətində idman sahəsi də prioritet istiqamətdir. Yüksək diqqət və qayğı sayəsində son 10 ildə bu sahədə çox böyük irəliləyiş əldə edilmişdir. İdman sağlamlıq və sağlam ruh deməkdir. Qeyd edilən dövrdə idman qurğularının sayı 12 faiz artmışdır. Respublikada 40-dan çox müasir olimpiya idman kompleksi, üzgüçülük hovuzları, stadionlar, şahmat məktəbləri inşa edilmişdir. "Bakı-2015" İlk Avropa Oyunlarının paytaxtımızda keçirilməsi ilə ölkəmiz adını dünyanın idman tarixinə qızıl hərflərlə yazdı - idmançılarımız 56 medal qazandılar, onun 21-i qızıldır. Qeyd etmək lazımdır ki, rekord müddətə-17 aya yarışlara yüksək səviyyədə hazırlaşan ölkəmiz Bakı Olimpiya stadionunu, ən yeni texnologiyalarla təchiz edilmiş müasir gimnastika arenasını, Su idman sarayını, BMX velosipedinin keçirilməsi üçün məkanı, Atletlər kəndini və s. idmançıların və azarkeşlərin ixtiyarına vermişdir.

Gənc könüllülərin fəaliyyətini xüsusi qeyd etmək lazımdır. 12500 nəfərdən çox əksəriyyəti gənclər olan, könüllülər Azərbaycanın adını ucaltmaq üçün qüvvə və bacarıqlarını əsirgəmədilər, 5 mindən çox gənc isə açılış və bağlanış mərasimlərinin təşkili üçün böyük əzmkarlıqla çalışmışlar. Bu idman yarışı gərgin beynəlxalq şəraitdə, milli dini toqquşmalara rəğmən dünyaya dostluq, birgəyaşayış, inkişaf, əməkdaşlıq, sülh mesaji verdi. Dövlət başçısı ölkəmizin ləyaqətli, bacarıqlı, savadlı, vətənpərvər gənclərə malik olduğu barədə demişdir: "Azərbaycan gəncləri vətənpərvərdir, biliklidir, savadlıdır. Birinci Avropa Oyunları bunu bir daha göstərdi. Bu Oyunlarda iyirmi minə yaxın könüllü iştirak etmişdir. Onlar təmənnasız iştirak etmişlər, gecə-gündüz, səhərdən-axşama qədər çalışmışlar. Azərbaycan gəncliyi budur. Bilikli, xarici dili bilən, savadlı, peşəkar, mədəni, gözəl gənclərdir. Onların hər birinə artıq mənim adımdan və Avropa Oyunlarının Təşkilat Komitəsinin sədri Mehriban Əliyevanın adından təşəkkürnamə sertifikatı verilməyə başlanmışdır. Onlar buna layiqdirlər. Bizim gənclər milli ruhda, vətənpərvərlik ruhunda böyüməlidirlər, eyni zamanda, savadlı, bilikli olmalıdırlar".

**Ataş CƏBRAYILOV,**
**"Respublika".**